# Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına start verib

## Bələdiyyə seçkiləri ilə bağlı Səbail rayonunda görüş keçirilib




23 dekabrda ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təbliğat-təşviqat kampaniyasına uğurla start verib.

Kampaniya çərçivəsində dünən Səbail rayonunun Badamdar qəsəbəsində rayon seçiciləri ilə görüş keçirilib. "Xalq üçün" şüarı ilə baş tutan görüşdə YAP-ın Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri, Milli Məclisin deputatı, professor Şəmsəddin Hacıyev, YAP-ın Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin üzvləri, bələdiyyə seçkilərində iştirak edən namizədlər, Badamdar bələdiyyəsinin hazırda fəaliyyətdə olan İdarə Heyətinin üzvləri və Badamdar qəsəbəsi sakinləri iştirak ediblər.

Tədbiri açan YAP-ın Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri, Milli Məclisin deputatı, professor Şəmsəddin Hacıyev bildirib ki, respublikada keçirilən bütün seçkilər, o cümlədən bələdiyyə seçkiləri demokratik prinsiplər əsasında keçirilir: **"Əminik ki, "Xalq üçün" devizi ilə getdiyimiz bu bələdiyyə seçkilərində də xalqımız YAP-ın namizədlərini dəstəkləyəcək və partiyamız bu seçkilərdə də möhtəşəm uğur qazanacaqdır".**

Sonda Badamdar bələdiyyəsinin hazırda fəaliyyətdə olan sədri Təzəxan Məmmədov ötən dövr ərzində Badamdar bələdiyyəsi tərəfindən görülmüş işlər haqqında məlumat verib.

**MÜŞFİQƏ**

## YAP Tərtər rayon təşkilatı tərəfindən irəli sürülmüş namizədlərlə görüş-mitinq keçirilib





Məlum olduğu kimi, 3 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verilib. Ölkənin hər yerində olduğu kimi Tərtərdə də bu proses uğurla davam edir. Belə ki, partiya tərəfindən Tərtər rayonu bələdiyyələrinə irəli sürülmüş namizədlərlə rayonun Hacıqərvənd və Yuxarı Sarıcalı-Düyərli kəndlərində görüş-mitinq keçirilib.



Hər iki kənddə görüş-mitinqi YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov açaraq bələdiyyələrin son 5 ildəki fəaliyyətindən, ölkə Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda əldə olunan uğurlardan, Azərbaycan xalqının sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində yürüdülən siyasətin müsbət nəticələrindən danışıb. Natiq bütün bu uğurların fonunda cari ildə keçiriləcək bələdiyyə seçkilərində YAP-ın namizədlərinin şəksiz qələbə qazanacaqlarına əmin olduğunu bildirib.

Görüş-mitinqdə həmçinin sözügedən kəndlərin sakinləri Rasim Əliyev, Sitarə Xəlilova, Mehman Mehdiyev, Tahir Əliyev, Əzizə Cəfərova, Südabə Quluyeva, Tahir Əliyev və başqaları çıxış edərək növbəti bələdiyyə seçkilərinin də şəffaf və demokratik qaydada keçiriləcəyinə, seçicilərin bu dəfə də partiyamızın namizədlərinə səs verəcəklərinə əmin olduqlarını ifadə ediblər.

## YAP Bərdə rayon təşkilatı bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir




Yeni Azərbaycan Partiyasının (YAP) Bərdə rayon təşkilatı dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı təbliğat kampaniyasını davam etdirir. Kampaniya çərçivəsində rayonun Mehdili və Qarademirçi kəndlərində seçicilərlə görüş keçirilib. Görüşdə YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun üzvləri Səba Məmmədova, Cavid İbişov, Xosrov Musayev, Mehdili və Qarademirçi bələdiyyəsi üzrə namizədlərdən Bahatur Eyvazov, Tahir Əliyev, Mürşüd Sadıqov, Rəhim Əhmədov, Yunis Behbudov çıxış ediblər.

Qeyd edək ki, rayonun Hacallı və Bəcirəvan kəndlərində də seçicilərlə görüş keçirilib. Görüşdə çıxış edən YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun üzvü Fuad Ağayev bildirib ki, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyası bütün seçkilərdə olduğu kimi bələdiyyə seçkilərinə də yüksək fəallıqla başlayıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası bütün respublika ərazisində 1606 bələdiyyə üzrə 15500 nəfər YAP üzvünün namizədliyini irəli sürüb.

Tədbirdə YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun üzvləri Püstə Mehdiyeva, Elşən Məmmədov, Vidadi Əliyev, Hacallı bələdiyyəsi üzrə namizədlərdən Akif Əhmədov, Yavər Hacıyev, Faiq Abdulrəhimov, Kamilə Əhmədova, Mahirə Əliyeva, Xəqani İmanov, Bəcirəvan bələdiyyəsi üzrə namizədlərdən Rəfayil Bəylərov, Nargilə Əliyeva, Toğrul Məmmədov, Əli Bəylərov çıxış ediblər. Onlar seçiciləri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

## Bələdiyyə seçkiləri ilə bağlı Ağstafa rayonunda səhiyyə işçiləri ilə görüş keçirilib





23 dekabrda ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təbliğat-təşviqat kampaniyasına uğurla start verib.

Kampaniya çərçivəsində səhiyyə işçiləri ilə görüş keçirilib. Tədbiri açan YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov bildirib ki, YAP bu seçkilərə də ciddi hazırlaşıb: **"Biz dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində səhiyyə işçilərinin yaxından iştirak edəcəklərindən əminik. Cənab Prezident İlham Əliyevin bütün sahələrdə, o cümlədən səhiyyə sahəsindəki islahatlarının davamlı şəkildə həyata keçirilməsində bələdiyyələr də artıq öz sözünü deməkdədir".**

Sonra Ağstafa rayon Mərkəzi Xəstəxanasının baş həkimi Fatma Vəliyeva, Uşaq xəstəxanasının baş həkimi İradə Batıyeva, həkimlərdən Teyyub Carçıyev, Xəyalə Ağakişiyeva və başqaları çıxış edərək bələdiyyə seçkilərində iştirak edəcəklərini, seçkilərdə YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilmiş müsabiqələrin qalibləri mükafatlandırılıb

Dekabrın 3-də Bakı Dövlət Universitetinin (BDU) yaradılmasının 100 illik yubileyi münasibətilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq universitetin öz məzunları üçün keçirdiyi "BDU xatirələrdə" və KİV nümayəndələri arasında elan etdiyi "100 ilin zirvəsində" müsabiqələrinin qaliblərinin mükafatlandırılması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə rektor Elçin Babayev açaraq 100 yaşlı universitetin tarixinə nəzər salıb. Bildirib ki, 100 il bir zərrədir, zərrədən də kiçikdir. Amma onun ictimai-siyasi, elm-təhsil mühitinə verdiyi töhfədən danışırıqsa, 100 illik tarix kifayət qədər zəngin və əhəmiyyətli bir dövrdür. Müxtəlif formatlarda keçirilən yubiley tədbirləri haqqında məlumat verən rektor yekun tədbirin Prezident İlham Əliyevin iştirakı ilə noyabrın 26-da qeyd edildiyini bildirərək dövlət başçısının yubiley tədbirində iştirakını universitetin timsalında elmə, təhsilə böyük dəstək, xüsusi münasibət kimi qiymətləndirib.

Universitetin 100 illiyinə həsr olunmuş Məzun Forumundan və yekun olaraq məzunlar arasında akademik, elmi, texnoloji və biznes sahələrində əməkdaşlıq əlaqələrini möhkəmləndirmək üçün "Beynəlxalq Məzun Assosiasiyası"nın yaradılmasından danışan rektor yubileylə əlaqədar kitabların nəşr olunduğunu, "Bakı Universiteti" qəzetinin xüsusi buraxılışının hazırlandığını, pul sikkələrinin və markaların buraxıldığını diqqətə çatdırıb. Ümummilli Lider Heydər Əliyevin təhsil aldığı Bakı Dövlət Universitetinin məzunu statusunu daşımağın şərəfli olduğunu vurğulayan rektor "100 ilin zirvəsində" adlı müsabiqədə qalib olanların əsasən universitet məzunları olduğunu bildirib.

Müsabiqəyə təqdim edilmiş yazılar və xatirələr haqqında məlumat verən rektor yazıların münsiflər heyəti tərəfindən qiymətləndirildiyini diqqətə çatdırıb.



Sonra qaliblər elan edilib. KİV nümayəndələri arasında elan edilmiş "100 ilin zirvəsində" adlı müsabiqədə 1-ci, 2-ci və 3-cü yerin ümumilikdə altı nəfər qalibi müəyyənləşib. Digər 4 nəfər isə həvəsləndirici mükafata layiq görülüb.

Bakı Media Mərkəzinin redaktoru Müsəllim Həsənov "Bu universitet bir palıd ağacına oxşar ki..." yazısına görə 1-ci yerə layiq görülüb. Real TV-nin xüsusi müxbiri Ləman Ələşrəfqızı "Mənim universitet xatirələrim" və Lent.az saytının xüsusi müxbiri Səbuhi Məmmədli "Güllələnən 4 rəhbər, Uruqvaydan məktub, Moskvaya qəfil teleqram" yazılarına görə 2-ci, Lənkəran Dövlət Universitetinin mətbuat xidmətinin rəhbəri Esmira İsmayılova "Mənim doğma universitetim", "525-ci qəzet"in əməkdaşı Sevinc Qarayeva "Əsrin zirvəsində parlayan elm ocağı" və "Yeni Azərbaycan" qəzetinin əməkdaşı Aqşin Şahinoğlu "Azərbaycan təhsilinin flaqmanı. İlk milli universitetimiz 100 yaşında" yazılarına görə 3-cü yerin qalibi olublar.

Birinci yerin qalibinə 1000, ikinci yerin qaliblərinin hər birinə 500, üçüncü yerin qaliblərinə isə 300 manat pul mükafatı və universitetin xüsusi diplomu təqdim edilib.

Tədbirdə Azərbaycan radiosunun əməkdaşı Zaur Rzayevə "İllərin tarixi" adlı radioverilişinə, "İqtisadiyyat" qəzetinin əməkdaşı Mətanət Hüseynovaya "BDU 100 ilin zirvəsində", Məktəbguşəsi.az saytının əməkdaşı Orxan Qərimana "Sarsılmaz məbəd - Bakı Dövlət Universiteti 100" və müstəqil jurnalist Aytəkin Alxaslıya "Müqəddəs məkanım mənim" adlı yazılarına görə 200 manat pul mükafatı və universitetin xüsusi diplomu təqdim olunub.

Bundan əlavə, müsabiqəyə yazı təqdim edən Jurnalistika fakültəsinin 4-cü kurs tələbəsi, "Olimpiya dünyası" qəzetinin əməkdaşı Kənan Novruzov "100 ilin zirvəsində", Heydər Əliyev adına liseyin 10-cu sinif şagirdi Nuray Məmmədli isə "Qovuşacağımız günə az qaldı" yazılarına görə mükafatlandırılıblar.

Tədbirdə universitet məzunları arasında elan edilmiş "BDU xatirələrdə" müsabiqəsinin qalibləri də elan edilib. Birinci yerə Tətbiqi-riyaziyyat və kibernetika fakültəsinin 2002-ci il məzunu, Mingəçevir Dövlət Universitetinin əməkdaşı Cəmilə Musayeva, ikinci yerə Tarix fakültəsinin 2007-ci il məzunu, Türkiyə Respublikası, Diyarbəkir Polis İdarəsi Təhlükəsizlik şöbəsinin əməkdaşı İbrahim Karataş, üçüncü yerə isə Jurnalistika fakültəsinin 1994-cü il məzunu, "Paralel" qəzetinin əməkdaşı Nigar Vaqifqızı layiq görülüblər.

Qaliblərdən bəzilərinin yazısı "Bakı Universiteti" qəzetinin "BDU-100" xüsusi buraxılışında dərc olunub.

Bakı Dövlət Universitetinin kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor Cahangir Məmmədli və digər çıxış edənlər qalibləri təbrik edib, onlara gələcək fəaliyyətlərində daha böyük uğurlar arzulayıblar.